

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 30 (23.672)

13 fevral 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Beynəlxalq Qars müqaviləsinin 100 illiyi qeyd olunacaq

*2021-ci il oktyabrın 13-də mühüm tarixi-siyasi əhəmiyyətə malik Qars müqaviləsinin imzalanmasının 100 illiyi tamam olur. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov fevralın 8-də "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən Tədbirlər Planı da təsdiq olunub.*

Tədbirlər Planında bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, "Qars müqaviləsi və Naxçıvan" mövzusunda konfransın, Qars şəhərində Türkiyənin Qars Qafqaz Universiteti ilə birlikdə beynəlxalq konfransın keçirilməsi, Qars müqaviləsi ilə təsbit olunmuş ərazinin xəritəsinin hazırlanması, "Qars müqaviləsi – 100" mövzusunda interaktiv dərsin keçilməsi, "Naxçıvan" jurnalının bir nömrəsinin Qars müqaviləsinin 100 illiyinə həsr edilməsi, zərf və poçt markalarının buraxılması, "Qars müqaviləsi və Naxçıvan" mövzusunda elmi araşdırmaların aparılması, elmi əsərlərdən ibarət sərginin təşkili, yubiley tədbirinin keçirilməsi və başqa tədbirlər nəzərdə tutulmuşdur.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev mövzu ilə bağlı söhbətimiz zamanı Ali Məclis Sədri tərəfindən imzalanan sərəncamın Naxçıvanın zəngin dövlətçilik tarixinin, muxtariyyətin baniləri olan görkəmli tarixi şəxsiyyətlərin, dövlət xadimlərinin, ümummilli liderimiz Heydər Əliyevin muxtariyyətin qorunmasındakı müstəsna xidmətlərinin öyrənilməsi və təbliği baxımından mühüm tarixi-siyasi əhəmiyyət kəsb etdiyini vurğuladı.

Akademik bildirdi ki, 1920-ci ildə Zəngəzurun itirilməsi ilə Naxçıvan diyarının Azərbaycanla quru sərhəd əlaqəsi pozulmuş, bundan istifadə edən Ermənistan dövləti Naxçıvanı tutmağa, Ermənistana birləşdirməyə səy göstərmişdir. Böyük dövlətlərin hər cür yardımından istifadə edən Ermənistan hərbi təcavüzdən də çəkinməmiş, Naxçıvan ərazisinə hərbi basqınlar etmiş, soyqırımlar törətmiş, şəhər və kəndləri dağıtmışdır. Yerli ziyalıların və əhalinin qəhrəmanlığı, Türkiyə hökumətinin tutduğu ədalətli mövqe sayəsində ərazi qorunub saxlanılmışdır. 1921-ci ilin yanvarında Naxçıvanda keçirilən referendumun nəticəsi, yəni əhalinin 90 faizdən çoxunun səsverməsi ilə Naxçıvan diyarının Azərbaycanın tərkibində qalması, Türkiyə ilə Rusiya arasında imzalanan Moskva müqaviləsi məsələni ədalətli həll etmişdir. Belə ki, Moskva beynəlxalq müqaviləsinə görə, Naxçıvana Azərbaycanın himayəsində muxtariyyət statusu verilmiş və Azərbaycan heç bir halda onu üçüncü dövlətə verməməlidir.

Bundan təqribən 7 ay sonra – 1921-ci il oktyabrın 13-də Qarsda Türkiyə ilə Cənubi Qafqaz respublikaları – Azərbaycan, Gürcüstan və Ermənistan arasında Rusiya nümayəndəsinin iştirakı ilə beynəlxalq Qars müqaviləsi imzalandı. Həmin müqaviləni imzalayan Türkiyə, Azərbaycan və Ermənistan Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə razı olmuş və müqaviləni imzalamışlar.

Qars müqaviləsinin mühüm siyasi və tarixi əhəmiyyətindən bəhs edən akademik İsmayıl Hacıyev bunu həmin müqavilə ilə Türkiyənin Cənubi Qafqaz respublikaları arasındakı mübahisəli ərazi – sərhəd məsələlərini həll etməsi ilə əlaqələndirdi.

Qeyd olundu ki, 20 maddə və 3 əlavədən ibarət olan müqavilə müddətsiz imzalanmışdır. Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın statusu ilə bağlıdır. Üçüncü əlavədə isə Naxçıvanın ərazisinin dəqiq sərhədləri verilib.

Akademik onu da vurğuladı ki, Qars müqaviləsinin nəticəsi olaraq Naxçıvan 1921-ci ilin martında Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü ilin iyununda Naxçıvan diyarı, 1924-cü ilin fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-də isə Naxçıvan Muxtar Respublikası adlandırılıb.

İsmayıl Hacıyev ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın tərkibində Naxçıvana muxtariyyət statusunun verilməsini yüksək qiymətləndirməsindən bəhs edərək dahi öndərin bu müdrik fikirlərini xatırladı: ***"Bu, çətin bir dövrdə böyük mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

Naxçıvanın dövlətçilik tarixinin, xüsusilə də muxtariyyət və müstəqillik dövrlərinin tədqiqatçısı kimi tanınan akademik qeyd etdi ki, Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələ olmaqla, həm də Naxçıvanın Azərbaycanın tərkibində qorunub saxlanılmasında əhəmiyyətli rol oynamışdır və böyük tarixi əhəmiyyəti vardır. Bunları nəzərə alan Ali Məclisin Sədri mühüm tarixi-siyasi əhəmiyyət daşıyan sərəncam imzalamışdır. Həmin sərəncamda da qeyd olunduğu kimi *"...Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir,... bu müqavilə Naxçıvanın ərazisi və bu ərazinin beynəlxalq müqavilə ilə qorunan toxunulmazlıq hüququnu təsbit etmişdir".*

Akademik sonda bildirdi ki, Qars müqaviləsi XX əsrin Türkiyə və Azərbaycan üçün verdiyi çox mühüm sənəddir. O nəinki Türkiyənin mənafeyinə tamamilə zidd olan Sevr müqaviləsini iflasa uğratdı, habelə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında münasibətləri tənzimlədi. Müqavilənin əhəmiyyətli cəhətlərindən biri də onun müddətsiz imzalanması idi.

**Xəbərlər şöbəsi**

## AMEA Naxçıvan Bölməsinin yeni saytı üç dildə fəaliyyət göstərəcək



***AMEA Naxçıvan Bölməsinin müasir dizaynda yaradılmış rəsmi internet saytının (ameanb.az) təqdimatı keçirilib.***

Tədbirdə çıxış edən bölmənin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, texnologiyanın yüksək inkişaf etdiyi dövrdə internet resurslarının istifadə imkanlarının artırılması və təkmilləşdirilməsi qarşıya qoyulmuş mühüm vəzifələrdən biridir. Saytların informasiya təminatı baxımından əhəmiyyətinə diqqətçəkən akademik bildirib ki, yeni təqdim olunan sayt bölmənin uğurlarını daha geniş səpkidə ifadəetmə imkanına malikdir.

Bölmənin Beynəlxalq əlaqələr və informasiya şöbəsinin mütəxəssisi Səkinə Cümşüdova bildirib ki, yeni internet saytı dizaynına, quruluşuna və funksionallığına görə müasir standartlara uyğun şəkildə hazırlanıb. Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərən sayt 7 bölmə və 17 altbölmədən ibarətdir.

"Ana səhifə"də saytın əhatə etdiyi bütün istiqamətlər əks olunmuş, istifadəçilərin rahatlığı nəzərə alınmaqla əsas məlumatlara keçidlər təmin edilmişdir. Bölmənin ümumi fəaliyyətini əhatə etməklə yanaşı, burada, həmçinin ərsəyə gələn müxtəlif elmi nəşrlərin ümumi sayını göstərən sayğac yaradılmış, elmi dərəcəsi olan əməkdaşlar haqqında məlumatlar qeyd olunmuşdur.

"Haqqımızda" bölməsində Naxçıvan Bölməsinin yaranma tarixi, fəaliyyət istiqamətləri ilə bağlı məlumat almaq mümkündür.

Qeyd olunub ki, saytın "Struktur" adlı bölməsində Naxçıvan Bölməsinin elmi-tədqiqat institutları və tabe qurumlarının, şöbə və laboratoriyalarının fəaliyyətləri haqqında məlumat verilmiş, bölmənin nəzdində fəaliyyət göstərən Nəbatat bağı, eləcə də Gənc Alim və Mütəxəssislər Şurası haqqında informasiya əks olunmuşdur.

Yeni təqdim olunan saytın "Əməkdaşlıqlar" və "Layihələr" bölmələrində Naxçıvan Bölməsinin respublika və beynəlxalq əhəmiyyətli əlaqələri, bölmə əməkdaşlarının qalibi olduqları qrant layihələr və patentlər haqqında məlumatlar təqdim edilir.

Saytın "Xəbərlər" bölməsində son yeniliklər və elanlardan xəbərdar olmaq mümkündür. Burada müraciətçilərin, başqa müəssisə əməkdaşlarının bölmə ilə əlaqəsini asanlaşdırmaq məqsədilə elektron müraciət forması yaradılmış və məlumatların daha əlçatan olması üçün "Axtarışlar" bölməsi hazırlanmışdır. Mobil internet istifadəçilərinin rahatlığı nəzərə alınmaqla saytın daha sadə və yığcam formalı mobil versiyası hazırlanmışdır.

Vurğulanıb ki, saytın üç dildə fəaliyyəti bölmədə baş verən yeniliklərin, nəinki ölkəmizdə, eləcə də ölkə hüdudlarından kənarda da izlənilməsinə şərait yaradacaqdır.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Muxtar respublikada pensiyaların artımla birlikdə maliyyələşdirilməsi başa çatdırılıb

Ötən il ortaaylıq nominal əməkhaqqı əhəmiyyətli dərəcədə yüksəlmişdir ki, bu da "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə uyğun olaraq 2021-ci ildə pensiyaların sığorta hissəsinin həmin faiz qədər indeksləşdiriləsək artırılmasını şərtləndirir. Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında " 2021-ci il 5 fevral tarixli Sərəncamına əsasən əmək pensiyalarının sığorta hissəsi ötən il üzrə ortaaylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 1 yanvar tarixinə 11,4 faiz artırılmışdır. Bu artım pensiyaçıların rifahına ciddi dəstək olan tədbirlərin cari ildə də davam etdiyini göstərir.

Həmin sərəncamda nəzərdə tutulan tapşırıqların operativ qaydada icra edilməsi üçün Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən müvafiq tədbirlər həyata keçirilmiş, muxtar respublika üzrə əmək pensiyaçılarının pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsindən irəli gələn vəzifələr barədə şəhər və rayon şöbələrinə müvafiq tapşırıqlar verilmişdir. Fondun yerli qurumları pensiyaların sığorta hissəsinin artırılması prosesini başa çatdırmış, yanvar ayının artımları da daxil olmaqla fevral ayının pensiya ödənişində əmək pensiyaçılarına ödənilmişdir.

Fond tərəfindən muxtar respublika üzrə əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və dövlət qulluqçusu kimi əmək pensiyası alan pensiyaçılar istisna olmaqla, 46 min 388 əmək pensiyaçısına və ya pensiyaçıların 92,3 faizinə şamil edilmişdir. Bu artımların həyata keçirilməsi məqsədilə fondun büdcəsindən hər ay 1 milyon 250 min manata yaxın əlavə vəsait ayrılmışdır.

Əmək pensiyalarının sığorta hissəsində müvafiq artımların aparılması ilə yanaşı, istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq muxtar respublikada fərdi uçot sistemində qeydiyyatda olan 179649 sığortaolunanın fərdi hesabının sığorta hissəsində toplanmış pensiya sığorta kapitalı məbləğləri də indeksləşdirilməklə 2,8 faiz artırılması elektron qaydada həyata keçirilmişdir. Bu da əmək müqaviləsi ilə çalışaraq sosial sığorta sistemində iştirak edən şəxslərin mənafeyinə xidmət edir. Belə ki, onların fərdi hesablarındakı pensiya kapitalının həcmi təkcə hər ay əməkhaqlarından sosial sığorta ayırmaları hesabına deyil, həmçinin hər il dövlət tərəfindən indeksləşdirilərək də artırılır. Bu isə sığortaolunanların gələcəkdə yüksək pensiya ilə təmin olunmasına müsbət təsir göstərir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Torpaqlardan istifadə və onların mühafizəsinə ciddi önəm verilir

Muxtar respublikada torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi, mülkiyyət hüquqlarının qeydiyyatı zamanı operativliyin təmin edilməsi 2021-ci ilin yanvar ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılmışdır.



"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı"na uyğun olaraq Şərur rayonunun 22 bələdiyyəsi və dövlət ehtiyat fondu, Babək rayonunun 12 bələdiyyəsi və qış otlağı, Culfa rayonunun 7 bələdiyyəsi, Kəngərli rayonunun 6 bələdiyyəsi və qış otlağı, Ordubad rayonunun 5 bələdiyyəsi, Sədərək rayonunun 1 bələdiyyəsi, dövlət ehtiyat fondu və qış otlağı, həmçinin Naxçıvan şəhərinin 4 bələdiyyəsi üzrə eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqlar xəritələşdirilmişdir.

Torpaqların elektron kadastr uçotunun aparılması ilə əlaqədar olaraq Culfa rayonunun Culfa bələdiyyəsi və Ordubad rayonunun Ordubad bələdiyyəsi üzrə reyestr məlumatları yeni xəritələrin üzərinə köçürülmüş, aşkar olunan uyğunsuzluqlar aradan qaldırılmışdır. Qeyd olunan bələdiyyələr üzrə həyətyanı torpaq sahələrinin miqrasiyası başa çatdırılmışdır. Ordubad rayonunun Üstüpü, Çənnəb və Aza bələdiyyələrinin ərazilərində torpaqların qida maddələri ilə təmin olunması kartoqramları yenilənmişdir.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Xələc və Şəhriyar, Kəngərli rayonunun Qarabağlar kəndlərinin ərazisində aparılan monitorinqlər başa çatdırılmışdır. Şərur rayonunun Dəmirçi və Kəngərli rayonunun Şahtaxtı kəndinin ərazisində monitorinqlərə başlanılmışdır. Aşkar olunmuş torpaqdan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində iş aparılmışdır.

Ötən ay 409 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 314 texniki sənəd hazırlanmış, yeni yaranmış 16 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 64 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Səyyar xidmət vasitəsilə 8 yaşayış məntəqəsində 50 vətəndaşın müraciətinə baxılmışdır. 11 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

# Naxçıvan: tarixi reallıq və muxtariyyət statusu

## Naxçıvanın muxtariyyət modeli

***Muxtariyyət sözünün mahiyyətində fərqlilik əks olunub. Dövlətlərarası münasibətlərdə isə muxtariyyət çox vaxt özünü milli-etnik, linqvistik, dini, coğrafi və digər fərqliliklərin və ya azlıqların hüquqlarının xüsusi olaraq qorunması müstəvisində göstərir. Tarixin qədim dövrlərindən etibarən beynəlxalq münasibətlər sistemində muxtariyyət statusuna malik dövlət quruluşları mövcud olmuşdur. Belə ki, hələ eramızdan əvvəl yunan şəhər dövlətləri muxtariyyət hüququna malik olmuşlar. Yunanıstanın əsas ərazisindən – Balkan yarımadasından kənarda Kiçik Asiyada, Qara dəniz sahillərində yaranmış yunan şəhər dövlətləri – polislər, məhz muxtar idarəetmə sayəsində əsas ərazidən uzaqda olsa belə, öz mövcudiyyətlərini uzun müddət davam etdirə bilmişlər.***

Hazırda dünya dövlətlərinin hər birində müxtəlif dil, din, etnos və digər fərqli dəyər daşıyıcılarının birgəyaşayışını tənzimləyən idarəetmə quruluşu mövcuddur. Belə ki, BMT-nin üzvü olan 193 dövlətdən 27-si federativ, qalanları isə unitar dövlətlərdir. Unitar dövlətlərdən






32-nin tərkibində isə müxtəlif səviyyəli və mahiyyətli muxtar ərazilər və ya regionlar mövcuddur. Avropadakı 6 federal dövlətin və tərkibində müxtəlif səviyyəli muxtariyyət hüquqlu ərazilər olan 9 unitar dövlətin muxtariyyət statuslarında əsas faktorlardan biri milli-etnik fərqliliklərdir. Hətta İtaliyanın tərkibindəki Sardiniyada, Siciliyada və ya Fransanın tərkibindəki Korsikada da müəyyən tarixi-etnik fərqliliklər özünü göstərir. Mahiyyət etibarilə, hətta konfessional fərqliliyinə görə də muxtariyyət hüququ olan ərazi quruluşlarına rast gəlinir. Belə ki, Yunanıstanın inzibati quruluşunda "Müqəddəs Dağ (Afon) Keşiş muxtar dövləti" adlı pravoslav keşiş ərazisi mövcuddur. Bu baxımdan Avropada təkcə Portuqaliyanın muxtariyyət statuslu ərazilərini coğrafi quruluşla əlaqələndirmək olar. Portuqaliyanın Atlantik okeanında yerləşən Azor adalarının və Madeyra arxipelaqının əhalisi ölkənin əsas ərazisi ilə eyni milli-etnik, din və dil daşıyıcılarıdır.

Beləliklə, beynəlxalq təcrübəyə etdiyimiz bu qısa ekskurs nəticəsində qeyd edə bilərik ki, Azərbaycan Respublikasının tərkibində Naxçıvanın muxtariyyət statusu tamamilə fərqli məna daşıyır. Bu muxtariyyət Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını təsbit etmək üçün yaradılmış hüquqi statusdur. Bu mənada, Naxçıvanın muxtariyyət statusunu bütün dünya miqyasında unikal adlandırmaq olar. Naxçıvanın muxtariyyəti tarixi zərurət və coğrafi faktorun təsiri altında yaranmışdır. Başlıca mahiyyəti sovet rəhbərliyi tərəfindən tarixi torpaqlarımızın ermənilərə verilməsi nəticəsində Azərbaycanın əsas hissəsi ilə coğrafi cəhətdən ayrı salınmış eksklav (anklavın bir növü) ərazinin Azərbaycandan ayrılmazlığı üzərində qurulmuşdur.

### *Zəngəzurun işğalı nəticəsində yaranmış tarixi zərurət*

Naxçıvanın muxtariyyət taleyində, ilk növbədə, tarixi zərurət prinsipi həlledici rol oynayır. XX əsrin əvvəllərində, xüsusən də 1918-1920-ci illərdə regionda baş verən hadisələrə baxanda görünür ki, Naxçıvanın taleyi, ilk növbədə, yerli əhalinin qeyrəti və əyilməzliyi hesabına qorunurdu. Həm 1905-ci ildə, həm də cümhuriyyət dövründə müxtəlif xarici qüvvələrin silahlandırdığı erməni quldur dəstələri qarşısında yerli əhali bir çox hallarda təkbaşına mübarizə aparmalı olmuşdur. Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti qurulduğu zaman İrəvan Ermənistana güzəşt edilmiş, Zəngəzur Azərbaycanla Ermənistan arasında mübarizə meydanına çevrilmiş, Qarabağ isə ermənilərin xəyanətinə məruz qalmışdır. Buna görə də Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvandakı hadisələrə müdaxilə etmək imkanı, demək olar ki, yox dərəcəsində idi. Digər tərəfdən isə Türkiyə Birinci Dünya müharibəsində məğlub tərəf olduğundan, bu məsələdə tam dəstək göstərə bilmirdi. Bölgədə müxtəlif



xarici qüvvələrin himayədarlığı ilə erməni dəstələri tez-tez özbaşınalıq etməyə cəhd edirdilər. Yalnız yerli azərbaycanlı özünümüdafiə qüvvələri erməni quldurlarına müqavimət göstərirdilər. 1918-ci ilin noyabr ayından 1919-cu ilin mart ayına qədər isə Naxçıvan, Şərur-Dərələyəz, Sürməli, Uluxanlı, Sərdarabad, Qəmərli, Vedibasar və Mehri bölgələrini əhatə edən, təxminən, 1 milyon əhalinin yaşadığı Araz-Türk Respublikası mövcud olmuşdur.

Andranik Ozanyanın başçılığı altında erməni daşnak quldur dəstələri tərəfindən Naxçıvanda, Zəngəzurda yüzdən çox azərbaycanlı kəndi dağıdılmış, minlərlə insan qəddarlıqla qətlə yetirilmişdir. Naxçıvan Milli Şurasının özünümüdafiə dəstələrinin və Kazım Qarabəkir Paşanın rəhbərliyi ilə köməyə gələn türk ordusunun qüvvələri hesabına 1920-ci ilin ortalarına doğru Naxçıvan erməni daşnak qüvvələrindən təmizləndi. Bununla belə, 1918-1920-ci illərdə Zəngəzurda, Dərələyəzdə və Vedibasarda həmin dövrün beynəlxalq güclərinin himayəsi ilə ermənilər növbəti işğalçılıq planları üçün əsas yarada bildilər. Təsadüfi deyildir ki, Cənubi Qafqaz dövlətləri sovet işğalına məruz qalandan sonra əzəli Azərbaycan torpağı olan Zəngəzur yeni yaranmış sovet Ermənistanına verildi. Bununla da Naxçıvanın Azərbaycanın əsas ərazisi ilə birbaşa əlaqəsi kəsildi və bu region siyasi-coğrafi cəhətdən eksklava çevrildi.

Bütün bunları nəzərə alaraq qeyd etməliyik ki, Naxçıvanın muxtariyyəti, ilk növbədə, tarixi zərurətdən yaranmışdır. Ulu öndər Heydər Əliyev bununla bağlı deyirdi: ***"Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi".***

Akademik İsmayıl Hacıyevin "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" əsərində də qeyd etdiyi kimi həmin dövrdə, hətta Naxçıvanın



da Ermənistana verilməsi ilə bağlı cəhdlər olmuşdur. Ermənistan tərəfi müxtəlif təxribatlara əl atırdı. Ermənistan sovetləşdiriləndən sonra belə, Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı Azərbaycanın bir hissəsi kimi deyil, müstəqil sovet respublikası kimi tanımışdır. Lakin hər zaman qətiyyət göstərən Naxçıvan diyarının əhalisi Azərbaycanın tərkibində muxtariyyət tələb edirdi. Naxçıvan, ilk növbədə, yerli əhalinin mübarizəsi və qətiyyəti hesabına Azərbaycanın tərkibində qalmış oldu. 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin iştirakı ilə keçirilmiş rəy sorğusunda bölgə əhalisinin 90 faizindən çoxu Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi.

### *Anklav region olmağın çətinlikləri*

Naxçıvanın muxtariyyət statusunu zəruri edən ikinci amil isə coğrafi, daha doğrusu, siyasi-coğrafi faktor olmuşdur. Zəngəzurun itirilməsindən sonra Naxçıvan eksklav əraziyə çevrildi. Tarixi təcrübə göstərir ki, bütün dünyada bu cür coğrafi şəraitdə yerləşən əksər ərazilərin müstəsna inzibati idarəetmə sistemi və bir çox hallarda muxtariyyət statusu olur. Dünya təcrübəsində bu tip ərazi quruluşlarının yaranması tarixinin, siyasi və coğrafi səbəblərlə əlaqədar olması müşahidə edilir. Bu yerdə qeyd etmək istərdik ki, diplomatiya tarixində "anklav" sözünün əks olunduğu ilk sənəd 1526-cı il Madrid Sazişidir. 1521-1526-cı illərdə bir tərəfdən Fransa, Venesiya Respublikası, digər tərəfdən isə İspaniya, Müqəddəs Roma imperiyası, İngiltərə Krallığı arasında baş verən müharibənin nəticələrinin əksini tapdığı bu sazişdə Avropanın yeni siyasi səhnəsində mərkəzdən uzaq düşən anklavlar anlayışı ortaya çıxmışdır.

Hazırda dünyada siyasi, tarixi, coğrafi səbəblərdən yaranmış müxtəlif ölçüdə 283 anklav ərazi mövcuddur. Azərbaycan Respublikasının əsas ərazisindən ayrı düşən və üç ölkə – Türkiyə, İran və Ermənistan ilə əhatə olunan Naxçıvan Muxtar Respublikası eksklav ərazi hesab olunur. Keçən əsrin 20-ci illərində sovet Rusiyası tərəfindən Qafqaz işğal olunarkən, bu regionda yaradılmış müttəfiq respublikaların sərhədlərində dəyişikliklər edilmişdir. Tarixi Azərbaycan torpaqları olan Zəngəzurun, Dərələyəzin sovet rəhbərləri tərəfindən Ermənistan SSR-ə hədiyyə edilməsi hesabına Naxçıvanın Azərbaycanın əsas ərazisi ilə birbaşa quru əlaqəsi kəsilmiş oldu. Beləliklə, eksklav ərazi mövqeyinə düşməsi Naxçıvana Azərbaycan Respublikasının tərkibində muxtar respublika statusu verilməsi ilə nəticələndi.

Kazım Qarabəkir Paşanın "Şərqin qapısı", Mustafa Kamal Atatürkün isə "Türk qapısı" adlandırdıqları Naxçıvanın muxtariyyət statusu beynəlxalq müqavilələrlə təsbit olunmuşdur. 1921-ci il martın 16-da Türkiyə ilə Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsində Naxçıvanın heç bir dövlətə güzəştə gedilməməsi şərtilə Azərbaycanın tərkibində saxlanılması razılaşdırılmışdır. 1921-ci il oktyabrın 13-də RSFSR-in nümayəndəsinin iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR ilə Türkiyə arasında imzalanan Qars müqaviləsinə əsasən Naxçıvanın ərazisi, sərhədləri müəyyənləşmiş və həmin sərhədlər daxilində Azərbaycanın himayəsi altında muxtariyyət statusu təsbit olunmuşdur. Hər iki beynəlxalq müqavilə müddətsiz imzalanmışdır və həmin müqavilələr onu imzalayan dövlətlər tərəfindən birtərəfli qaydada ləğv edilə bilməz.

Ümummilli lider Heydər Əliyev Naxçıvanın muxtariyyət statusunun həyati əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, ***"Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir".***

Qeyd etmək lazımdır ki, Naxçıvanın statusunun toxunulmazlığına beynəlxalq zəmanət olsa belə, həmin dövrdə sovet rəhbərliyi tərəfindən Moskvadan muxtariyyətin təsbitinə ciddi maneələr olmuşdur. Bunun nəticəsidir ki, muxtariyyət statusu yalnız 1924-cü ildə rəsmi olaraq təsdiqini tapmışdır. Belə ki, Azərbaycan MİK-in 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsbit olunmuşdur. Bu status 1926-cı il aprelin 18-də qəbul olunmuş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının birinci Konstitusiyasında əksini tapmışdır.

### *Naxçıvanın muxtariyyət statusu ilə bağlı pozulan beynəlxalq hüquq və erməni işğalı*

Naxçıvan Muxtar Respublikasına aid ərazilər Moskva və Qars müqavilələrinə əsasən beynəlxalq zəmanət qazanmış olsa da, sovet hakimiyyəti dövründə daim ermənilərin əsas hədəflərindən biri olmuşdur. Belə ki, Naxçıvan Muxtar Respublikasının Qars müqaviləsi ilə təsbit edilmiş ərazisinin təqribən 15 faizi XX əsrin müxtəlif illərində Ermənistan tərəfindən qanunsuz olaraq zəbt edilmişdir. Muxtariyyət təsbit olunduqdan sonra Naxçıvana aid torpaqların Ermənistana verilməsi ilə bağlı ilk hadisə 1929-cu ildə baş vermişdir. Tarix elmləri doktoru Ataxan Paşayevin "XIX-XX əsrlərdə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, soyqırımları və deportasiyaları" kitabında da qeyd olunduğu kimi 1929-cu il fevralın 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvanın 657 kvadratkilometr ərazisi – Şərur qəzasının Qurdqulaq, Xaçik (Daqin Almalı), Horadiz (Qaradüz), Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxəç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan (Qarsevən) kəndi və Kilit kəndi torpaqlarının bir hissəsi Ermənistana verilmişdir. Tarixdə heç vaxt ermənilərin yaşamadığı, yalnız Türkmənçay müqaviləsindən sonra İranın Salmas vilayətindən köçürülmüş ermənilərin sayəsində Şərur-Dərələyəz mahalının bu kəndlərinin adları da sonrakı dövrlərdə erməniləşdirildi. Türk mənşəli toponimlərin tamamilə xəritələrdən silinməsi ermənilərin məkrli təcavüzkarlıq siyasətinin tərkib hissəsi olmuşdur. Tarixi saxtalaşdırmaq, Azərbaycan torpaqlarının tarixi adlarını dəyişdirmək regionda türk irsinin silinməsinə yönəlmişdir.

*Ardı 3-cü səhifədə*



Təsadüfi deyildir ki, Ermənistana verilmiş bu 9 kənddən Sultanbəy kəndinə 1935-ci ildə Bartsiruni, Qurdqulaq kəndinə 1946-cı ildə Boloraberd, Horadiz kəndinə 1968-ci ildə Oradis, İtqıran kəndinə 1991-ci ildə Nor Aznaberd kimi qondarma adlar verilmişdir.

Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə adları dəyişdirilən bu kəndlərdən 1928-1930-cu illərdə yerli azərbaycanlı əhali, demək olar ki, tamamilə köçürülmüşdür. İndi xaraba kənd olan Almalıdan 1938-1939-cu illərdə azərbaycanlılar köçürülmüş, 1939-cu ildə isə kənd ləğv edilmişdir. Oğbin kəndindən SSRİ Nazirlər Sovetinin xüsusi qərarından sonra 1948-ci ildə azərbaycanlılar zorla Azərbaycana köçürülmüşdür. Qədim adı Ağarxac olmuş Ağxaç kəndindən də 1928-1929-cu illərdə azərbaycanlılar sıxışdırılaraq çıxarılmışdır.

Beləliklə, Naxçıvan Muxtar Respublikasına məxsus ərazilərin statusu beynəlxalq müqavilələr əsasında zəmanət altında olsa belə, həmin müqavilələri imzalayan tərəflərin heç bir razılığı olmadan bu torpaqların Ermənistana verilməsi ilə beynəlxalq hüquq prinsipləri pozulmuş oldu. Həmin kəndlərin adlarının dəyişdirilməsi, əzəli Azərbaycan toponimlərinin silinməsi isə beynəlxalq hüquqla bərabər tarixə də ləkə gətirdi.

1930-cu ildə Naxçıvana məxsus daha 3 kənd Ermənistana verildi. Lehvaz, Astazur və Əldərə (Aldərə) kəndləri yenə də beynəlxalq zəmanət verilmiş muxtar respublika ərazilərindən ayrılaraq Ermənistana verildi. Bir tərəfdən Naxçıvandan, digər tərəfdən Zəngilandan ayrılaraq Ermənistana verilmiş torpaqlar hesabına Mehri rayonu yaradıldı. Sonrakı dövrlərdə həm Zəngilan, həm də Naxçıvan istiqamətlərində Ermənistan Mehri dəhlizini daha da genişləndirmək üçün daim cəhdlər etmişdir.



Qeyd etməliyik ki, həmin illərdə sovet rəhbərliyi tərəfindən Moskvadan gələn təlimatlarla bir tərəfdən Azərbaycan əraziləri Ermənistana verilir, digər tərəfdən isə azərbaycanlı əhaliyə qarşı təzyiq və təqiblər nəticəsində azərbaycanlıların say nisbətinə müdaxilələr edilirdi. Belə ki, 1930-cu illərdə Naxçıvan əhalisi sovet rejimi tərəfindən deportasiya və sürgünlərə də məruz qalırdı. Həmin illərdə Naxçıvanda 1000-dən artıq ailə – 35 mindən çox əhali Qazaxıstana və Sibirə sürgün edilmişdir. Bundan başqa, həmin illərdə Türkiyə və İrana mühacirət edənlərin də sayı kifayət qədər çoxluq təşkil edirdi. Məqsəd bəlli idi. Qədim Azərbaycan torpaqları olan Naxçıvanda yerli əhalinin demoqrafik çoxluğunun və inkişafının qarşısını almaq. Bununla belə, bütün bu təzyiqlərin fonunda Naxçıvan əhalisi sovet dövlətinin zorakılıq siyasətinə qarşı ciddi mübarizə aparırdı, hətta zaman-zaman silahlı üsyanlar baş verirdi.

1938-ci ildə Naxçıvan Muxtar Respublikasının Sədərək və Kərki kəndlərinə məxsus əkin sahələrinin bir hissəsi Ermənistana verildi. Bununla da xəritəmizdə yeni bir anklav – Kərki anklavı yaradılmış oldu. Kəndin əhalisi ancaq azərbaycanlılardan ibarət olduğuna görə Sovet hökuməti yerli əhalinin narazılığı qarşısında kəndi verə bilmədi. Lakin Kərkinin anklava çevrilməsi 1990-cı ildə Ermənistanın Azərbaycana hərbi təcavüzü başlayan kimi kəndi çətin vəziyyətə qoydu. 1990-cı il yanvarın 19-da hər tərəfdən düşmənlə əhatə olunan Kərki kəndi işğal olundu.

Beləliklə, sovet hakimiyyəti illərində Naxçıvanın 12 kəndi Ermənistana verilmiş, bu kəndlərdən yerli azərbaycanlı əhali çıxarılmış, yer adları dəyişdirilmişdir.

***Vətən müharibəsinin Naxçıvana açdığı dəhliz***

2020-ci ilin 27 sentyabr-10 noyabr tarixlərində 44 gün davam edən Vətən müharibəsi müstəqil Azərbaycanın həyatında yeni bir səhifənin açılması ilə nəticələndi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməklə, pozulmuş beynəlxalq hüquq normalarını da bərpa etmiş oldu. Ermənistan tərəfindən törədilmiş növbəti hərbi təxribatın qarşısını almaq məqsədilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatı nəticəsində tarixi ədalət bərpa olundu. ***"Qarabağ Azərbaycandır və nida işarəsi!"*** məfkurəsi hər bir Azərbaycan vətəndaşı və dünya azərbaycanlıları üçün qələbə şüarı oldu.

Vətən müharibəsində Azərbaycanın qələbəsi regionda 30 ilə yaxındır, donub qalmış digər böyük problemlərin də həlli üçün zəmin yaratdı. Regionda sülh və təhlükəsizlik Cənubi Qafqazda yeni nəqliyyat-kommunikasiya əlaqələrinin və qovşaqlarının yaranması şərtləndirə bilər. Bununla bağlı müddəa Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının



baş naziri və Rusiya Federasiyası Prezidentinin imzaladıqları bəyanatın 9-cu bəndində əksini tapmışdır: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri açılır. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir". Bu, Azərbaycan diplomatiyasının gələcəyə hədəflənən strategiyası, eyni zamanda uğurudur. Azərbaycan Respublikası Prezidentinin apardığı məqsədyönlü siyasət Cənubi Qafqazda iqtisadi və logistika baxımından tamamilə yeni bir mənzərənin yaranmasına səbəb olacaqdır və bu yeni vəziyyətdə Naxçıvan Muxtar Respublikası blokada şəraitindən çıxaraq əlverişli coğrafi mövqeyə yiyələnə bilər. Naxçıvan Cənubi Qafqazda həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətində yaranacaq yeni nəqliyyat marşrutlarında mühüm arteriya olacaqdır.

Beləliklə, muxtariyyətinin 97-ci ili tamam olan Naxçıvan bu dövr ərzində müxtəlif mərhələlərdən keçmişdir. Birincisi, Zəngəzurun Ermənistana verilməsi ilə Azərbaycanın əsas ərazisindən ayrı düşmək. İkincisi, sovet hakimiyyəti illərində muxtariyyətə zəmanət verən beynəlxalq müqavilələrin pozularaq torpaqlarının bir hissəsinin Ermənistana verilməsi. Üçüncüsü, Kərki kəndinin işğalı və Naxçıvanın blokada şəraitinə düşməsi. Nəhayət, hazırda yeni bir mərhələyə keçid alırıq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli mövqeyi və siyasi iradəsi ilə Ermənistanla imzalanan sənəddə Naxçıvanla nəqliyyat əlaqələrinin əksini tapması muxtar respublikanın həyatında yeni bir dövr olacaqdır. 30 ilə yaxın müddətdə blokada şəraitinin bütün çətinliklərinə baxmayaraq, yüksək inkişaf səviyyəsinə nail olmuş Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası yaranmış yeni şəraitdə yeni bir intibah yaşayacaqdır.

***Ərəstü HƏBİBBƏYLİ***
*iqtisadiyyat üzrə fəlsəfə doktoru*
*"Xalq qəzeti"*
*9 fevral 2021-ci il*

## Dövlət qayğısı hər bir hərbçi ailəsinin gələcəyə inamını artırır

***Naxçıvanın "Dəmirqapı Dərbəndi", qeyrət qalası Sədərək torpağı və onu üç tərəfdən dövrəyə alan, vüqarını Vətən oğullarının bir vaxtlar döyüşlərdə bu torpağa hopan qanından, sevgisindən alan bu dağlar nələrə şahidlik etməyib. Bir vaxtlar – nə çox, nə az, düz 30 il bundan öncə Sədərək od içində idi, onun bahar çiçəkləri şəhid qanına boyanırdı. Erməni daşnakları Naxçıvanı hədəf seçmişdilər. Onlar səhərə kimi dinc Sədərəyi güclü atəşə tuturdular. 12 min əhalinin yaşadığı kəndin hər səhəri döyüşlə açılırdı. Lakin igid oğullarımız mərdlik göstərərək düşmənin iradəsini qırmağa nail oldular.***



Bir-birindən qeyrətli oğullar canlarını Vətən yolunda qurban verdi. Toplardan və zirehli texnikalardan atılan mərmilərlə kəndin yolu-izi də tamam dağıdılmışdı. Sədərək döyüşlərində Naxçıvan diyarının qeyrətli oğulları mərdliklə vuruşaraq torpağımızı qorudular. Elə indi də o uca zirvələrdə igid oğullarımızın düşmənin qorxulu yuxusuna çevrilməsi sayəsində torpaqlarımız qorunur. Bir vaxtlar bu uca zirvələrdə qanlı döyüşlərdə sinəsini Vətənə sipər edən oğulların yolunu bu gün Əlahiddə Ümumqoşun Ordunun əsgər və zabitləri davam etdirir.

Onlardan biridir əslən Ağcabədi rayonunun Poladlı kəndindən olan Amil Rəhimli. Gənc zabit artıq beş ildir ki, qədim yurdumuzda xidmət edir. O bu müddət ərzində Culfa rayonunda, Naxçıvan şəhərində xidməti vəzifəsini layiqincə yerinə yetirib. Bir neçə aydır ki, yurdumuzun qeyrət qalası Sədərəkdə düşmənin bir addımlığında xidmətinə davam edir. Ailəsi Heydərabad qəsəbəsindəki çoxmənzilli binada ikiotaqlı təmirli, hər bir şəraiti və əşyası olan evlə təmin edilib. Yaxın günlərdə hərbçi ailəsinin qonağı olduq.

Amil Rəhimli:

– Azərbaycanda ordu quruculuğuna xüsusi diqqət göstərilir, zabit ailələrinin mənzil-məişət şəraiti də yaxşılaşdırılır, yeni yaşayış binaları tikilir, mövcud yaşayış binaları yenidən qurulur, qüsursuz xidmət edən hərbi qulluqçulara mənzillər verilir. Ərazi bütövlüyünü qoruyan hərbçi ailələri üçün yaradılan şərait, zabit-gizir ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, eyni zamanda dövlətinin öz ordusuna, onun zabitlərinə və ailələrinə göstərdiyi qayğının daha bir ifadəsi, Azərbaycanda mövcud olan dövlət-xalq-ordu birliyinin nəticəsidir. Vətənə ləyaqətlə xidmət edən əsgər və zabitlər daim diqqətdə saxlanılır. Bütün bunlar hər birimizdə qürur hissləri ilə bərabər, əminlik yaradır. Muxtar respublikada zabitlərin xidmətlərinin nümunəvi təşkili və rahat yaşaması üçün ardıcıl tədbirlər görülür. Hər bir zabit ailəsi dövlətin qayğısını üzərində hiss edir. Bu gün bu torpaq düşmənə əsl gözdağıdır. Ötən ilin son aylarında baş verən Vətən müharibəsində düşmən Sədərəyə – muxtar respublikanın sərhədlərinə bir güllə belə atmağa cürət etmədi. Çünki naxçıvanlılar onların gözünün odunu 90-cı illərdə alıblar. Ermənilər yaxşı dərk edirlər ki, atılan bir güllənin belə, cavabını necə layiqincə alacaqlar. Bu gün hər birimiz əminliklə deyirik ki, ordumuzun hər bir fərdi Vətəni necə sevdiyini, lazım gələndə bir ovuc torpaq üçün canından keçə biləcəyini hər kəsə sübut etdi. Bütün dünya şahid oldu: Vətən necə sevilər, dövlət-xalq-ordu birliyi necə olar. Cəmi 44 gündə necə bir xalq , necə güclü bir orduya sahib olduğumuzu hər kəsə göstərdik.

Uşaqlığının bir vaxtlar cəbhə bölgəsi olan Ağcabədi rayonunda keçdiyini deyən ev sahibi onu da bildirir ki, 5 ildir ki, muxtar respublikada xidmət edir, bu müddətdə hərbi qulluqçuların sosial-məişət şəraitinin



daim diqqətdə saxlanıldığının şahidi olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hərbi hissələrdə şəraiti və zabit-gizir ailələrinin sosial təminatı ilə maraqlanması şəxsi həyatda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olur. Göstərilən qayğıya görə minnətdarlığını bildirən zabit deyir ki, Vətənə xidmət hər kəsin borcudur. Biz hərbçilər üçün isə Vətənə xidmət yaşamaq amalıdır.

Zabitin həyat yoldaşı Ruhəngiz xanım isə bildirir ki, 2015-ci ildən muxtar respublikada yaşayırıq, hər yerdə şəraitimiz ürəkaçan olub. Sədərək rayonunda bizə xidməti mənzil verilməsi məni və övladlarımı çox sevindirdi. Çünki indi həyat yoldaşımın xidmət yerinə daha yaxınıq. Şəraitimiz çox gözəldir. Yaxınlıqda uşaq bağçası, məktəb də vardır, həyətdə uşaqların əylənməsi üçün şərait də. Evimizin pəncərələrindən düşmən postları aydın görünür. Düşmənə yaxın olsaq da gecələri rahat yatır, gündüzləri əmin-amanlıqla dolaşırıq həyətdə, evimizdə. Mən və burada yaşayan digər hərbçi ailələri də, yerli sakinlər də, əminik ki, bizim, torpağımızın keşiyini igid Azərbaycan əsgəri layiqincə çəkir. Onlar, lazım gəlsə, öz canları ilə düşmənə sipər olaraq bizi qoruyarlar. Bütün bunları gördükcə və düşündükcə ki, mənim həyat yoldaşım da müzəffər bir ordunun fərdi kimi Vətənin müdafiəsində dayanır, qürur hissi keçirirəm. Ali Məclisin Sədrinə mənə və ailəmə göstərdiyi atalıq qayğısına görə minnətdarlığımı bildirirəm.

Qışın soyuq, şaxtalı günlərindən birində, səliqə-sahmanı və hər bir şəraiti olan bu ocaqdan ayrılanda çox yox, 30 il öncəyə qayıdır düşüncələrim: Sovet ordusunun tərk etdiyi hərbi hissələrdə nə salamat bir zabit yataqxanası, nə də ailələrinin yaşaya biləcəyi bir mənzil qalmışdı. Silah-sursatı özləri ilə aparmaqdan gözləri doymayan qaniçənlər mənzilləri də dağıdıb yaşanılmaz hala gətirmişdilər. Zabit-gizir ailələri yaşam şəraitinin çox zəif olduğu bu mənzillərdə şaxtalı, soyuq qışda günlərlə işıqsız, qazsız yaşamaq məcburiyyətində qalırdılar. Yol kənarından min bir əziyyətlə kəsilib gətirilən yaş odunları yandırıb qızınmağa çalışsalar da, istisindən çox tüstüsünə boğulurdular.

*Bu gün isə özüm də bir hərbçi ailəsi olaraq qürurla deyirəm ki, bu gün burada gördüklərim ürəyimi fərəh hissi ilə doldurdu. Və ən əsası dövlətimizə, onun Müzəffər Ali Baş Komandanına, muxtar respublika rəhbərinə minnətdarlıq hissimi artırdı. Qonağı olduğum zabit ailəsi kimi.*

**✍ Ramiyyə ƏKBƏROVA**

*Prezident cənab İlham Əliyev tərəfindən 2021-ci il ölkəmizdə “Nizami Gəncəvi” ili elan olunub. Bu, ümumilikdə, ədəbiyyatımıza, onun inkişafına, görkəmli söz və qələm adamlarına verilən böyük diqqət və qayğının ifadəsidir. Qeyd olunmalıdır ki, bu istiqamətdə görülən tədbirlər davamlı xarakter alıb. Hələ ulu öndər Heydər Əliyevin ölkəmizə hər iki rəhbərliyi dövründə belə, Azərbaycan mədəniyyətində, incəsənətində və digər sahələrdə böyük xidmətlər göstərən sənət adamlarının yubileylərinin keçirilməsi, onlara dövlət təltiflərinin verilməsi, heykəllərinin qoyulması, ev-muzeylərinin açılması və digər tədbirlər milli irsimizin qorunmasında, gələcək nəsillərə ötürülməsində yüksək dəyərləndirilib.*

*2021-ci il “Nizami Gəncəvi ili”dir*

## Dahi şairin bəşəriyyətə verdiyi misilsiz töhfələrə böyük qiymət



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən 2017-ci il avqustun 28-də “Oxunması zəruri olan kitabların Siyahısı”na Nizami Gəncəvinin də əsərlərinin salınması bir daha onu göstərir ki, Azərbaycanın zaman-zaman dünyaya söz sənəti xəzinəsini nadir incilərlə zənginləşdirən böyük sənətkarları sırasında Nizami Gəncəvi yaradıcılığı möhtəşəmliyi, müdrikliyi və həyatiliyi ilə seçilir. Bəli, Nizami o sənətkarlardandır ki, dərin fəlsəfi məzmunu yüksək poetik dillə, aydın, anlaşıqlı bir tərzdə oxucularına çatdıra bilmişdir. Elə bu səbəbdəndir ki, yazıldıqları dövrdən illər keçməsinə baxmayaraq, onun əsərləri öz bədii dəyərini bu gün də saxlayır.

Dahi sənətkar bədii fikir tarixini insan səadəti, mənəvi yüksəklik, mənalı ömür, azad və ədalətli cəmiyyət kimi əhəmiyyətini heç vaxt itirməyən ölməz ideyalarla zənginləşdirmişdir. Nizami sənəti özünün humanist ruhu, xalq arzu və istəklərinin aydın, təsirli ifadəsi ilə seçilir. Buna görədir ki, bu zəngin irs bütün dövrlərdə müasir səslənmiş, təqdir olunaraq izlənilmişdir. Nizaminin bütün yaradıcılığından qırmızı xətt kimi keçən dərin humanizm və sosial ədalət motivləri onun lirikasında da özünü qabarıq şəkildə göstərməkdədir. Nizaminin ədalətli insan cəmiyyəti haqqında siyasi-ictimai-əxlaqi fikir və düşüncələri, epik-lirik janrda ilk qələm təcrübəsi olan “Sirlər xəzinəsi” hər biri ayrı-ayrılıqda bitkin bir sənət əsəri olan iyirmi məqalə və müqəddimədən ibarətdir. Nizami özünün ədalətli insan cəmiyyəti haqqında arzularında ideal şah və hökmdar obrazlarının təsvirinə böyük yer verirdi. Şairə görə, şah xalqın dərdinə şərik olan, xalqı üçün çalışan, zülmü məhv edən olmalıdır. Özü əziyyət çəksə belə, rəiyyətinin əziyyətinə razı olmamalıdır. Şair bu fikirlərini “Sirlər xəzinəsi”ndə “Sultan Səncər və qarı” hekayəsində oxucuya təqdim edir. Sultan Səncər Səlcuqlular sülaləsindən olan, Nizamidən bir neçə il əvvəl vəfat etmiş, eyş-işrətə başı qarışan, ölkənin idarəsini öz yaxın adamlarına tapşırmış zülmkar şahdır. Ona vergi verən bir tayfaya ədalətsizlik edib, onlardan alınan vergini artırdığı üçün həmin tayfa tərəfindən əsir edilir, bunun nəticəsində şahlıq əlindən çıxır, əsirlikdən qaçdıqdan sonra isə ölkəsinin qarət və talan edildiyini görərək çox yaşaya bilməyib ölür. Nizami Sultan Səncəri öz müasirlərinə ibrət olsun deyə təqdim edib. Nizami görürdü ki, onun dövründə insanlar əzab-əziyyət çəkir və çalışırdı ki, insanların əzabını yüngülləşdirmək yollarını axtarıb tapsın. Bu yollardan biri isə tarixi şəxsiyyətlərə müraciət etmək idi.

Biz görürük ki, Nizami öz əsərlərində ideal, ədalətli hökmdar obrazı axtarır, eyni zamanda isə hər bir əsərində irəliyə doğru bir addım atırdı. Və nəhayət, Nizaminin son böyük poeması olan “İsgəndərnamə” əsərində İsgəndər obrazı ilə Nizami, sanki öz qarşısına qoyduğu problemi həll edərək göstərir ki, əsl ideal hökmdar İsgəndər kimi olmalı, xalqın qayğısına qalmalı, onun kimi başqa ölkələrlə sülh şəraitində yaşamalı və şərin kökünü kəsməlidir. Bu məqamda qeyd etmək yerinə düşər ki, ölkəmizi ədalətlə idarə edən Prezident cənab İlham Əliyevin fəaliyyəti ideal dövlət başçısı, xalqın sevimli rəhbəri kimi bu gün dünyanın bir sıra dövlət başçılarına örnəkdir. İsgəndər şəri, ədalətsiz müharibə aparanları cəzalandırır, onların kökünü yer üzərindən kəsirdi. Ədalətsiz müharibə düz 30 il davam etsə də, prezidentimiz böyük səbir, təmkin və iradə nümayiş etdirərək sülh, diplomatiya yolu ilə bu məsələni həll etməyə çalışsa da, şər öz mövqeyindən dönmədi. Necə ki, İsgəndər şərin kökünü kəsdiyi kimi, Ali Baş Komandan cənab İlham Əliyev də müzəffər Ordumuzun rəşadəti ilə erməni faşizminin, şərin kökünü kəsdi və göstərdi ki, Nizaminin 800 il bundan əvvəl irəli sürdüyü, örnək gətirdiyi dövlət başçısı kimi olmaq lazımdır. Nizaminin əsərlərində arzuladığı böyük ideyalar bu günümüzdə artıq öz əksini tapıb.

Nizami Gəncəvi uzun zamandan bəri dünya elmi-ədəbi fikrinin diqqət mərkəzindədir. Ölkəmizdə dahi şairin əsərləri dəfələrlə nəşr olunmuş, ədəbi irsinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, eləcə də dünya nizamişünaslığında ilk dəfə olaraq əsərlərinin elmi tənqidi mətni hazırlanmışdır. Nizami dühası bu gün də dünya ədəbi-mədəni və ictimai-fəlsəfi fikrində öz mövqeyi, sanbalı olan qlobal əhəmiyyətli fenomenal hadisələrdən biridir. Nizami özü də bilirdi ki, əsərləri yüz illər, min illərboyu yaşayacaq, buna görə də gələcək nəsillərə üz tutaraq belə deyibdir:

*Şeiri oxunanda bu Nizaminin*
*Özü də sözlərdən boylanar yəqin.*
*Gizlənib özünü verməzmi nişan*
*Sənə hər beytində bir sirr danışan.*
*Yüz il sonra sorsan: bəs o hardadır?*
*Hər beyti səslənər:*
*“Burda, burdadır!”*

*Bu gün Nizami bizim həməsrimizdir, Azərbaycan xalqının müxtəlif sahələrdə – istər mədəni, istər iqtisadi-siyasi sahədə zirvələrə doğru inkişafında Nizaminin və əsərlərinin rolu böyükdür. Buna görədir ki, dünya ədəbi-elmi fikrində Nizami sənətinə olan maraq heç vaxt səngimir, zaman-zaman şairin ölməz əsərləri istər Qərb, istərsə də Şərq dillərinə tərcümə edilərək bəşəriyyətin mənəvi kamilləşməsi prosesində öz rolunu oynayır.*

**Aytac CƏFƏRLİ**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə ədliyyə orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqəyə yerli icra və probasiya qurumlarında 10 vakant icra məmuru vəzifəsi (vəzifə kodu: 960000) çıxarılmışdır.

İcra məmuru vəzifəsinin tutulması üçün ali hüquq təhsilli, 30 yaşınadək Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 13 fevral-13 aprel 2021-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında (*www.dim.nmr.az)* “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməli və aşağıdakı sənədlərin skan olunmuş surətlərini “şəxsi kabinet”ə yükləməlidirlər:

*1. Şəxsiyyət vəsiqəsi;*
*2. Ali təhsil haqqında sənədlər;*
*3. Əmək kitabçası (olduğu təqdirdə);*
*4. Hərbi bilet;*
*5. 3x4 santimetr ölçüdə fotoşəkil (ağ fonda).*

Xarici ali təhsil müəssisələrinin məzunları təhsil sənədlərinin Azərbaycan Respublikasının ərazisində tanınması və ekvivalentliyinə dair şəhadətnamənin əslini və notarial qaydada təsdiq olunmuş surətini Dövlət İmtahan Mərkəzinə təqdim etməlidirlər.

Namizədlər elektron ərizəni təsdiq etmək üçün 70 manat məbləği “şəxsi kabinet” vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin “Naxçıvanbank” ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $09^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət İmtahan Mərkəzinə təqdim edilməlidir.

“Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, tibbi rəyə əsasən fiziki və ya əqli qüsurlarına görə işləməyə qadir olmayan, qanunla müəyyən edilmiş həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar, məhkəmə, prokurorluq, ədliyyə, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər işə qəbul edilmirlər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

***Maraqlananlar mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dim@nmr.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.***

## Tənha ahıllar ziyarət olunub

*Muxtar respublikada davamlı iqtisadi inkişafın təmin olunması nəticəsində ahıl vətəndaşlara göstərilən sosial xidmətlər təkmilləşdirilib, onların cəmiyyətə inteqrasiyası üçün hərtərəfli şərait yaradılıb.*



Məlum olduğu kimi, muxtar respublikada əməkqabiliyyətli yaxın qohumu ilə eyni yaşayış məntəqəsində yaşamayan və kənar şəxsin qulluğuna ehtiyacı olan tənha ahıllar müəyyənləşdirilərək sosial xidmətə qəbul edilir, onlara evlərində sosial məişət xidməti göstərilir. Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə Ordubad rayonunda sosial xidmət göstərilən tənha ahılların evlərinə sosial könüllülərin ziyarətləri təşkil olunub. Könüllülər tənha ahıllarla birgə vaxt keçirib, onlara məişət işlərində köməklik göstəriblər.

Ahıl vətəndaşlar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Ekoloji tədbirlər ətraf mühitin qorunmasına xidmət edir

***Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilməkdədir.***

Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə təsir hallarının qiymətləndirilməsi məqsədilə 42 yoxlama-reyd keçirilmiş, 1 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublikamızın təbiətinin qorunması üçün inzibati tədbirlərdən daha çox ekoloji-hüquqi maarifləndirmə tədbirlərinə üstünlük verilir. Bu məqsədlə Şərur rayonunun Tənənəm, Ordubad rayonunun Çənnəb kəndləri və ətraf kəndlərin nümayəndələrinin iştirakı ilə ekoloji-hüquqi maarifləndirici tədbirlər keçirilmişdir. Tədbirlərdə ətraf mühitin mühafizəsi, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişafı etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları haqqında müzakirələr aparılmışdır.

Ay ərzində ekoloji monitorinqlər də davam etdirilmişdir. Bu məqsədlə Şərur, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 24-dən çox yaşayış məntəqəsi ərazisində monitorinqlər aparılmış, bir sıra çatışmazlıqlar aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür. Sədərək Rayon Su Monitorinq Laboratoriyasında yanvar ayı ərzində Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən “Şir arxı”ndan hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülmüş və 96 analiz aparılmışdır.

Yanvar ayının əvvəllərindən başlayaraq yağan yağıntı ərazilərdə qarın səviyyəsinin artmasına səbəb olmuşdur ki, bu da biotexniki tədbirlərin keçirilməsinə zərurət yaratmışdır. Bu məqsədlə yeni salınmış meyvə və üzüm bağlarına, tinglik sahələrinə, massivlərə baxış keçirilmiş, həmin ərazilərin ziyanvericilərdən qorunması üçün tədbirlər görülmüşdür. Fauna ehtiyatlarının qaba yem və dəşduza olan tələbatının ödənilməsi üçün xüsusi mühafizə olunan təbiət ərazilərindən Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Arpaçay, “Arazboyu” və Ordubad Dövlət Təbiət yasaqlıqları ərazilərində biotexniki tədbirlər keçirilmiş, ərazilərə 1800 kiloqram daşduz, 120 kip qaba yem və 2400 kiloqramdan çox meyvə-tərəvəz qalığı dağıdılmışdır. Həmin ərazilərə yaxın yaşayış məntəqələrində ictimaiyyət nümayəndələri ilə ekoloji-hüquqi maarifləndirici söhbətlər aparılmış, yoxlama-reydlər keçirilmişdir.



Muxtar respublika ərazisində meteoroloji şəraitin öyrənilməsi, hava haqqında dəqiq məlumatların, proqnozların hazırlanması, əlaqədar dövlət orqanlarının və ictimaiyyətin hidrometeoroloji məlumatlarla təmin edilməsi üçün zəruri tədbirlər ay ərzində həyata keçirilmişdir. Mövcud faydalı qazıntılardan səmərəli istifadə və bu sahədə kəşfiyyat işlərinin aparılması işi də davam etdirilmişdir.

“Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamının və “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə nazirlik və Gənclər Fondunun birgə təşkilatçılığı ilə könüllülük fəaliyyətini başa vurmuş və yeni seçilmiş ekologiya könüllüləri ilə görüş keçirilmişdir. Görüş zamanı bir qrup ekologiya könüllüsünə sertifikatlar verilmişdir. Eyni zamanda hesabat ayında yeni seçilmiş ekologiya könüllülərinin iştirakı ilə Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində biotexniki tədbir keçirilmişdir.

Ekoloji tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Ekologiya və Təbii Sərvətlər***
***Nazirliyinin mətbuat xidməti***


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Gülcamal Tahirova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 137**